DOI: https://doi.org/10.36719/2663-4619/114/206-210

**Şahsənəm Musayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-8021-1977
sanammusayeva27@gmail.com

# Psixologizm ədəbiyyatda insan psixikasının təsviri kimi

## Xülasə

Məqalə ədəbiyyatda insan psixikasını geniş və çoxşaxəli şəkildə araşdırır. İnsan psixikası olduqca mürəkkəb bir məfhum olduğu üçün, onun özünəməxsus şərhə və izaha ehtiyacı vardır. Psixologizm insanın daxili aləmini, mənəvi böhranları, psixoloji konflikti aydınlaşdırır. Burada F.M.Dostoyevski, A.P.Çexov kimi dahi yazıçıların yaradıcılıqlarından konkret nümunələrlə insan psixikasının ədəbiyyatda rolu araşdırılır. Bununla yanaşı insan psixikasının həmçinin müasir ədəbiyyatda hansı mövqe tutduğu qeyd olunur. Psixologizmin ədəbiyyatda hansı funksiyaları yerinə yetirdiyi vurğulanır. Psixologizmin inkişaf etməsi, ədəbiyyatın insanı daha dərindən anlamasına xidmət edir. Bununla əlaqədar olaraq, konkret obrazlar timsalında psixikanın araşdırılması əsas məqsəd kimi çıxış edir. Beləliklə, məqalə insan psixikasının ədəbiyyatda hansı səciyyədə olduğunu təsvir edir. Nəticədə, psixologizmin rolu ədəbiyyatda heç zaman azalmır, insan psixikasını analiz edən bu yanaşma gələcəkdədə mühüm əhəmiyyət daşıyacaqdır.

***Açar sözlər:*** *psixologizm, konflikt, psixika, daxili aləm, psixoloji portret*

**Shahsanem Musayeva**
Baku Slavic University
Master student
https://orcid.org/0009-0002-8021-1977
sanammusayeva27@gmail.com

# Psychologism as a Description of the Human Psyche in Literature

## Abstract

The article examines the human psyche in literature in a broad and multifaceted way. Since the human psyche is a rather complex concept, it needs its own interpretation and explanation. Psychologism clarifies the inner world of man, moral crises, and psychological conflict. Here, the role of the human psyche in literature is examined with specific examples from the works of such brilliant writers as F.M. Dostoevsky and A.P. Chekhov. At the same time, the position of the human psyche in modern literature is also noted. What functions psychologism performs in literature is emphasized. The development of psychologism serves to provide literature with a deeper understanding of man. In this regard, the study of the psyche in the form of specific images serves as the main goal. Thus, the article describes the nature of the human psyche in literature. As a result, the role of psychologism in literature never decreases, and this approach to analyzing the human psyche will be of great importance in the future.

***Keywords:*** *psychologism, conflict, psyche, inner world, psychological portrait*

## Giriş

İnsan psixikası universal, mürəkkəb və fundamental bir məfhumdur. Bu anlam özündə mürəkkəb və sadə psixi prosesləri ehtiva edir. Bu psixi proseslər çoxşaxəli və qeyri-standart psixi əməliyyatları özündə əks etdirir. Ümumilikdə insanı öyrənən 200-dən çox elm sahəsi mövcuddur. Bunlar içərisindən psixologiya elmi insanın psixi durumunu konkret faktlar, elmi dəlillərlə araşdırır. Ədəbiyyatşünaslıq isə bunu həyati boyalarla, obrazlı şəkildə təqdim edir. İnsan psixikası nə qədər

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

fərqli olsa da, özünü ədəbiyyatda və yaxud bir əsərdə tapır və görür. Bu həmçinin, ədəbiyyatşünaslığın tərbiyəvi, didaktik xüsusiyyəti ilə səciyyələnir. İnsan psixikasının ədəbiyyatda özünü əks etdirməsi hadisəsi psixologizmlə bağlıdır. Qəhrəmanın daxili dünyası, daxili aləmlə xarici aləmin arasında olan uçurum, qəhrəmanın daxili mübarizələri, konflikt və ziddiyyətləri özünü məhz psixologizmdə əks etdirir. İnsan və onun daxili aləmi olduqca mürəkkəbdir. Bu dialektik təbiəti əks etdirmək özünəməxsus bacarıqlar tələb edir. Psixologizm insan xarakterinin mürəkkəbliyi, onun xarici davranışlara nə qədər təsir etdiyini araşdırır. Psixologizm yalnız obrazın xarici xüsusiyyətlərini, davranışlarını yox, onun daxili dünyasında baş verənləri, psixoloji vəziyyətini təqdim edir (Qocayev).

**Tədqiqat**

Ümumilikdə belə demək mümkündür ki, psixologizm sentimentalizm cərəyanı bazasında formalaşıb inkişaf etmişdir. Bu istiqamətin geniş vüsət almasının bir səbəbi də o idi ki, artıq ədəbiyyat insanı daha dərindən öyrənməyə, araşdırmağa başlamışdı. Bununla bağlı olaraq, psixologizmin inkişafı həm də bəşəriyyətin insanı daha çox öyrənmək istəməsi səbəbindən geniş şəkildə inkişaf etmişdir. Psixikanı bədii boyalarla, obrazlarla, təsvir vasitələri ilə, simvolik detallarla özündə müəyyən məna daşıyan nəsnələrlə açıqlayır. Bunların hamısı bədii əsərin qəhrəmanına yönəlmiş, ədəbiyyatşünaslıq aləmində olduqca maraq doğurmuşdur. Yaratdıqları qəhrəmanları fərqli çətin psixoloji durum və situasiyalarda sınayan sənətkarlar insanın daxili aləminin nə qədər mürəkkəb olduğunu vurğulamağa çalışırdılar (Çexov, 2009).

Psixologizm eyni zamanda bədii ədəbiyyat üçün dəyər vahididir. Belə ki, yaradıcılıqda psixologizmi səciyyələndirən hiss, duyğu, emosiya, düşüncə, hərəkət nə qədər dərin və təbiidirsə, onda yaradıcılıq məhsulu da o qədər təsiredicidir. Psixologizmə ədəbi-bədii əsərin ayrılmaz üzvi hissə də demək mümkündür. Bu onunla əlaqəlidir ki, psixoloji təhlilsiz ədəbi-bədii əsər tam şəkildə aydın olmaz və açıqlanmaz. Mükəmməl təhlil üçün əsərin mütləq ki, psixoloji zəmini də öyrənilməlidir. Bədii əsərdən çıxarılan qənaət, ideya da psixoloji təhlilin bir nəticəsidir (Dostoyevski, 1866).

Öz növbəsində bunu da qeyd etməyi lazım bilirik ki, psixologizm bir ədəbiyyatşünaslıq anlamı olaraq xarici və milli ədəbiyyat aləmində fərqli aspektlərlə araşdırmaya cəlb olunmuşdur. Milli ədəbiyyatda bununla bağlı M.C.Cəfərov, T.Mütəllimov, M.İmanov, C.Cəfərov, X.Əlimirzəyev və digər görkəmli tədqiqatçılarımız araşdırma aparmışlar. Psixologizm barəsində öz mülahizələrini önə sürmüşlər. Dünya ədəbiyyatşünaslığında L.S.Vıqotski, A.İezuitov və başqaları psixologizm məfhumunu bu və digər dərəcədə aydınlaşdırmağa çalışmışlar. Bu araşdırmalarda psixologizm problemi bir ədəbi-bədii kateqoriya kimi təhlilə cəlb olunmuşdur. Bu tədqiqatçılar içərisində A.İezuitovun gəldiyi qənaətlər maraq doğurur. Tədqiqatçı düşünür ki, psixologizm söz sənəti ilə birlikdə insanı bütövlükdə öyrənir. Psixologizm və psixoloji analiz bədii yaradıcılıqdan yaranır. L.S.Vıqotski də tədqiqatçı ilə eyni fikirdə olmuşdur (Dədəyev, 2007).

Psixoloq-yazıçı kimi F.M.Dostoyevski psixologizmin mükəmməl örnəklərini yaratmışdır. Onun dünyaca məşhur "Cinayət və cəza" romanını bu baxımdan təhlil etmək mümkündür. Əsərin baş qəhrəmanı tələbə Raskolnikovun simasında sənətkar insan psixikasını ən incə detallarına qədər təsvir edir. Öz ideyasını yerinə yetirmək uğrunda qatilə çevrilən Raskolnikovun psixoloji durumu, çətin situasiyalarda daxili aləmindəki ziddiyyət yazıçı tərəfindən yüksək səviyyədə işlənilir. Raskolnikovun daxili dünyası təkcə onun psixoloji durumu ilə səciyyələnmir. Biz həmçinin onun ətrafla olan münasibətini də nəzərdən keçiririk. Anası, bacısı ilə o olduqca həssas və mülayim davranır. Onları incitmək istəmir. Raskolnikovun bu ikili təbiəti onu mənəvi böhrana salır. Amma Raskolnikov cinayətdən sonra da, psixoloji durumu çətinləşdiyi zamanlarda da onlarla sərt davranmamağa çalışır. Belə situasiyalarda da qəhrəmanın daxili aləmi oxucuların gözü önündə nümayiş etdirir (Abbasova).

İnsanın daxili dünyasının ikili mahiyyəti onunla səciyyələnir ki, insan psixikası ziddiyyətlərlə doludur. Düşdüyü çətin situasiyalarda obrazın psixikası işə düşür. Raskolnikovun psixoloji-

emosional durumu onun düşdüyü gərgin vəziyyətlərdə açılır. Fəlsəfi suallar, daxili vicdan əzabı, cəmiyyətlə arasındakı uçurum Raskolnikovun daxili aləmində durğunluq yaradır. Cinayətdən əvvəl və sonra onun psixoloji vəziyyəti bir-birindən fərqlənir. Cinayətdən sonrakı vicdan əzabı, qorxu, vəsvəsə onun psixikasını pozur. Qarabasmalar, yuxular, sayıqlamalar ona həyatı haram edir. Mənəvi iztirab burulğanında çırpınan Raskolnikov əzabdan katorqada qurtulur. Qətlin hər anını qeyd edən yazıçı onun psixoloji əhval-ruhiyyəsindən yan ötmür, nəfəs alış-verişlərinə qədər yazır. Mükəmməl qatil eyni zamanda çox xeyirxah bir insandır. Son pulu ilə insanlara yardım edir. Sonya Marmeladovanı dərin məhəbbətlə sevir. Oxucu bu qatil obrazında eyni zamanda dərin humanizm görür. Bununla da insan psixikasının, insan təbiətinin nə qədər ziddiyyətli, mürəkkəb olduğu ortaya çıxır. Oxucu Raskolnikova acıyır, halına yanır. İnsanın psixiki durumu onun həyatı ilə birbaşa bağlıdır. Əsər boyunca hadisələrin axarı kəskinləşdikcə psixoloji atmosfer də gərginləşir. Psixologizm özünün ən yüksək mərhələsinə çatır. Daxili monoloqlar vasitəsilə oxucu obrazın daxili dünyasına səfər etmək şansını qazanır. Orada nələr baş verdiyi, hansı hiss və duyğular burulğanında olduğunu aydınlaşdırır. Bununla belə cinayətin cəzası çəkildikcə ruhi saflaşma baş verir. Dünyanı yenidən anlayır və kəşf edir. Onun psixikası tamamilə sağalır. Həyat davam edir. İnsan psixologiyası yalnız davranışlarla deyil, həm də xarici görkəmlə öz ifadəsini tapa bilər. Raskolnikovun xarici görkəmi, geyimi, üz cizgiləri, davranış və hərəkətləri də onun psixoloji durumunu özündə əks etdirir. Obrazın psixoloji portreti hərtərəfli psixikanı təsvir etməyə xidmət edir. Olduqca mürəkkəb olan insan psixikasını göstərmək ustalıq tələb edir (İsmayılova, 2015).

İnsan psixikasını yaradıcılığında mükəmməl şəkildə işləyən yazıçılardan biri də, rus ədəbiyyatının görkəmli nümayəndəsi Anton Pavloviç Çexovdur. İnsanın daxili aləmini bütün incəlikləri ilə diqqətə çatdıran yazıçının xüsusilə hekayələri olduqca diqqət cəlb edir. Özünəxas tərzi ilə fərqlənən yazıçı rəngarəng obrazlar aləmi yaradır. Çexov psixoloji portreti qısa olan hekayə janrında böyük ustalıqla təsvir edirdi. Çexovun yaratdığı qəhrəmanlar adi, sıradan olan insanlardır. Lakin yazıçı onların psixiki durumlarını fərqli situasiyalarda təqdim edir. Gündəlik həyatda olan məsələlər fonunda insan psixologiyası çoxşaxəli təqdim edilir. Psixologizmi Çexova qədər demək olar ki, sənətkarlar daha geniş epik təsvirlərdə verirdilər. Yazıçını fərqləndirən isə bunu kiçik janrda təqdim etməsi idi. İnsan psixikasının dərinliklərinə enən yazıçı ən kiçik bir detalla bunu nümayiş etdirirdi. Onun psixologizmi gizli və dolayı idi. Çexov hekayələrində və əgər belə demək mümkündürsə, bütün yaradıcılığında heç bir mənanı bir başa, açıq şəkildə təqdim etmir. Bunu dolayı, mətnaltı mənalarla ifadə edir. Bu zaman onun yaradıcılığı ilə tanış olan oxucu bunun üzərində düşünməyə, gizli verilən mətləbləri aydınlaşdırmağa çalışır. Çexov yaradıcılığından olan, maraq doğuran belə hekayələrdən biri “Qılaflı adam” dır. Psixikanın işləmə prinsipi baxımından bu hekayə çox maraqlıdır. Eyni zamanda mətnaltı mənalarla zəngindir (Seyidzadə, 2019). Hekayənin baş qəhrəmanı yunan dili müəllimi olan Belikovdur. Bu qəhrəmanın çox maraqlı psixoloji portreti təqdim olunur. Özünə qapalı, təcrid olunmuş halda yaşayan, insanlardan uzaq olmağa can atan Belikov qılafda yaşayırdı. Psixoloji portretinə nəzər saldıqda, belə qərara gəlirik ki, onun daxili aləmində olanlar xarici aləmi ilə əlaqəli idi. Psixoloji mənzərəni hər tərəfli təqdimi ilə yanaşı həmçinin psixiki faktlar hekayədə səpələnmiş şəkildə verilir. Çexov yaradıcılığında psixoloji təsvirin müxtəlif formalarından istifadə edir. Burada daxili monoloq, dolayı nitq, psixoloji mesaj kimi müxtəlif növlərdən istifadə edilir. Bundan başqa Çexovun “İt gəzdirən qadın” adlanan çox maraqlı bir hekayəsi var. Burada qadın və kişi psixikasının çox fərqli aspektlərinə toxunan yazıçı əslində onların nə qədər spesifik və individual olduğunu vurğulayır. Əsərin qadın qəhrəmanı Anna Sergeyevna Qurov adlı bir şəxslə sevgi macərası yaşayır. Lakin məsələ orada dolaşır ki, Anna evli ola-ola bu macəraya atılır. Onun psixoloji vəziyyəti maraqlı dialoq və monoloqlarla oxucu önündə canlanır. Vicdan əzabı Annanın yaxasını buraxmır. Bu əzabla da o bu eşqə davam edir. Bu zaman onun daxili dünyasında olan konflikt, ziddiyyət, ikiləşmə özündə psixologizmi nümayiş etdirir. Öz vicdanı və sevgisi arasında qalan qadın daim narahat, təşvişli, gərgindir. Gizli görüşlər onları daha da diqqətli olmağa vadar edir. Qurov da bunun doğru olmadığı qənaətindədir. Lakin daha diqqətli

hekayəyə nəzər salsaq görərik ki, Anna qədər Qurov narahat deyil. Beləliklə insan psixologiyasının mahir bilicisi olan yazıçı xəyanət mövzusunu çox fərqli aspektlərlə oxucuya təqdim edir. Çox dərinlikləri olan insan psixikası bu məsələni necə duyur, bu zaman daxili aləmdə nələr baş verir, eyni zamanda əxlaq və vicdan qarşılaşması xəyanəti necə qiymətləndirir kimi suallar ətrafında oxucu düşünür. Oxucu Annanın ən həssas nöqtələrini görür, Qurovun da ona olan sevgisi oxucu da maraqlı hisslər doğurur. Amma oxucu onlara haqq da verə bilmir. Evli ola-ola sevmək cəmiyyətin əxlaq və davranış standartlarına uyğun deyildir. Bütün sadalanan nümunələrlə o qənaətə gəlirik ki, dahi yazıçı insan psixikasını mükəmməl şəkildə və ən incə məqamlarla işləmişdir. Çexov oxucunu insan psixologiyasının dərin qatlarına salır. Oxucu gözü önündə psixoloji ab-hava atmosfer yaradır.

İnsan psixikasının təsviri ədəbiyyatda müəyyən bir funksiyaların yerinə yetirilməsinə xidmət edir. Bu funksiyaları müxtəlif cür təsnif etmək mümkündür. İlk olaraq, psixikanın təsviri daxili aləmin göstərilməsi üçün vacibdir. Bunsuz insanın daxili dünyasını təhlil etmək mümkün deyildir. Bununla biz xarakterin düşüncə, emosiya, hissləri ilə tanış oluruq, gərgin situasiyalarda nümayiş etdirilən hərəkətləri analiz edə bilirik. Digər bir məsələ isə konfliktlərin psixoloji səciyyəsidir. Konflikt obrazın psixikasının hansı istiqamətdə işlədiyini və onun qərarvermə potensialının hansı yöndə olduğunu müəyyənləşdirir. Konflikt daxili aləmin mübarizəsini kəskinləşdirir. Gərginlik özünün ən yüksək həddinə çatır. Digər bir funksiya olaraq ondan bəhs etmək mümkündür ki, psixikanın göstərilməsi personajın inkişafını təmin edir. Biz burada xarakterin psixoloji inkişafını izləmək şansı əldə edirik. Bu daha çox mənəvi gərginliklər yaşayan, mənəvi böhranda özünü tapmağa çalışan qəhrəmanlarda üzə çıxır. Nəhayət, sonuncu və ən maraqlı funksiya oxucularda empatiya hiss oyatmaqdır. Ümumilikdə, nəzər salsaq görərik ki, bu həm də ədəbiyyatın əsas məqsəd və qayəsidir. Ədəbiyyatın əxlaqi didaktik mahiyyəti burada göz ardı edilə bilməz. Elə bununla bağlı olaraq, insan psixikasının təsviri, psixologizmin verilməsi oxucuda empatik duyğuları yaratmağa xidmət edir. Oxucu özünü qəhrəmanın yerinə qoyur, onun yaşadıqlarını yaşasa o nə edərdi kimi suallara cavab verməyə başlayır. Və bununla da oxucuda saflaşma, mənəvi aləmin təmizlənməsi kimi proseslər baş verir. Oxucu mənən saflaşır. Buradan belə qənaətə gəlirik ki, psixologizmin ədəbiyyatda verilməsi təsadüfi xarakter daşımır. İnsan təfəkkürünün dərinlikləri barədə oxucu da zəngin təxəyyül formalaşdırır. İnsanı anlamağın və mahiyyətə varmanın ən yaxşı yollarından biri onun psixoloji tərəflərinin analizi və təhlilidir (İsmayılova, 2015).

Ədəbiyyatda insan psixikasının təsvir edilməsi, əsrlər boyunca uzun inkişaf yolu keçmişdir. Zaman keçdikcə bu yanaşma daha da zənginləşmiş və mürəkkəbləşmişdir. Müasir ədəbiyyatda insan psixikasının təsvirinə nəzər salsaq, bunu müşahidə edərik ki, müasir zamanda bu məsələ daha çox sosial, fərdi və mədəni perspektivdən qiymətləndirilir. Müasir dövrdə psixologizm, daha çox fərqli və təcrübi üsullarla ifadə olunur. Bunu daha çox postmodern ədəbiyyatda müşahidə etmək mümkündür. Burada klassik psixologizm ənənələri demək olar ki, dağıdılır. Müasir dövrün yazıçıları insanın daxili aləmini daha mürəkkəb və qarışıq təsvir edirlər. Bu psixika çox zaman qeyri-müəyyən xarakter daşıyır. Lakin müasir dövrdə ənənələrə sadiq qalır. Burada həm ənənə, həm də novatorluq özünü göstərir.

## Nəticə

Ədəbiyyatda psixologizm, insan psixikasının təsvir edilməsi həm klassik zaman kəsiyində, həm də müasir ədəbiyyatın inkişaf və zənginləşməsində mühüm yer tutmuşdur. Psixologizm, obrazların daxili dünyasını açmaqla, oxuculara qəhrəmanların emosional fonu barəsində anlamağa şərait yaradır. Psixologizmin təqdim etdiyi çoxqatlı və mürəkkəb psixoloji portretlər həm fərdi, həm də sosial-psixoloji aspektdən insan təbiətini araşdırmağa, təhlil və analiz etməyə imkan vermişdir. Müasir ədəbiyyatda psixologizm yalnız fərdin psixoloji durumunu açıqlamaqla kifayətlənmir, eyni zamanda bunun mədəni, bioloji faktlarla necə əsaslandığını və əlaqələndiyini göstərir. Beləliklə, psixologizmin insan psixikasının təsviri kimi rolunun əhəmiyyəti, ancaq zamanın tələblərinə uyğun olaraq dəyişməyib, həm də unikal olan insanın daxili aləminin mürəkkəbliyini dərin şəkildə açmağı

hədəfləyib. Bütün qeyd etdiklərimizi yekun vuraraq, bu fikri önə sürə bilərik ki, bu yanaşma hər zaman ədəbiyyatın insan psixikasını anlamağa çalışdığı ən əsas vasitələrdən biri olaraq qalacaqdır.

**Ədəbiyyat**


1. Abbasova, S. (il yoxdur). *Müasir bədii ədəbiyyatda psixologizm nümunələri.*
2. Çexov, A.P. (2009). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb.
3. Dədəyev, Ş. (2007). Psixika: İnsan orqanizmində psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi. *Yeni fundamental psixologiyanın əsasları*. Bakı: Qanun.
4. Dostoyevski, F.M. (1866). *Cinayət və cəza*. Bakı: Qanun.
5. İsmayılova, T. (2015). Anton Pavloviç Çexov və müasirlik. *Tərnopol Milli Pedaqoji Universiteti.*
6. İsmayılova, T. (2015). Psixologizm: nəzəriyyədən bədii yaradıcılığa doğru. *Dil və ədəbiyyat jurnalı*, №1(93).
7. Qocayev, M. (il yoxdur). *Cinayətin cəzası.*
8. Seyidzadə, C. (2019). Ədəbiyyatda psixologizm probleminin tarixi. *Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.*


Daxil oldu: 19.12.2024
Qəbul edildi: 24.03.2025